# Professor Zahid Qaralov təhsil sistemimizdəki problemlər və həlli yolları haqqında

**Samirə Məmmədova**
*fəlsəfə doktoru proqramı üzrə doktorant,*
*ARTİ*
**E-mail:** samire.memmedova@bk.ru

**Rəyçilər:** ped.ü.e.d., prof. H.H. Əhmədov,
ped.ü.f.dok., dos. S.H. Həsənova

**Açar sözlər:** təhsil sistemi, sosialist təhsil sistemi, bazar iqtisadiyyatı, islahatlar
**Ключевые слова:** система образования, система социалистического образования, рыночная экономика, реформа
**Key words:** education system, socialist education system, market economy, reform

Son onilliklərə qədər təhsil sistemi keçmiş totalitar rejimdən qalan üsulla idarə edilirdi. Qarşıda duran başlıca vəzifə Azərbaycan təhsil sistemində mütərəqqi ənənələri saxlamaqla, inkişaf etmiş ölkələrin təhsilinin idarəetmə mexanizmlərini ətraflı, dərindən öyrənməklə ölkəmizdə dünya standartlarına cavab verən müasir idarəetmə sisteminə keçilməsinə nail olmaqdan ibarətdir. Professor Zahid Qaralov yazırdı: "Təhsil, insana insanlıq keyfiyyətləri formalaşdırmağa imkan yaradan və bu imkanlardan hər kəsin yararlanmasını təmin edən maddi-mənəvi zənginlik sistemidir (4, 4). Təbiət-cəmiyyət-insan sisteminin mahiyyəti, ondan yaranan alt sistemlərin qavranılması və idarə edilməsi, hərəkət, inkişaf qanunauyğunluqları yalnız mütəşəkkil təhsil sistemləri vasitəsi ilə öyrənilə bilər. İnsan fəaliyyətinin bütün sahələrinin uğuru təhsil sisteminin mütəşəkkilliyindən asılıdır. XIX əsrdə Avropada mövcud olan dünyəvi təhsil sistemi əsasında yaranan sosialist təhsil sistemi XX əsrin 50-ci illərindən başlayaraq dünyada ən mütərəqqi və mükəmməl sistemlərin siyahısına daxil oldu. Qısa müddətdə öz ərazisində, sonra isə onun nüfuz dairəsinə keçmiş ölkələrdə yayılmağa başladı. 1950-60-cı illərdə sosialist təhsil sistemi çox böyük nailiyyətlər əldə edərək dünyanın inkişaf etmiş ölkələrinin diqqətini də özünə cəlb etdi. Bütün bunlara baxmayaraq sosialist təhsil sisteminin nöqsanlı, çatışmayan cəhətləri də çox idi. Bunların böyük bir hissəsi ictimai-siyasi quruluşun mahiyyətindən, idarəetmə üsullarının qeyri-demoktarikliyindən, bir hissəsi isə təhsil idarəedicilərinin özlərinin səhvlərindən irəli gəlirdi.

Təhsil sistemi-cəmiyyətin sifəti, onun mahiyyətini adekvat ifadə edən vasitədir. Başqa sözlə, insana münasibətin "nüvəsidir" (3, 101).

SSRİ-nin süqutu böyük çətinliklə qurulmuş sosialist təhsil sistemini də dağıtdı. Müstəqillik qazanan ölkələr öz milli təhsil sistemlərini yaratmağa cəhd etdilər. Azərbaycan ziyalıları və siyasi hakimiyyətdə olan şəxslər də buna cəhd etdilər. Milli təhsil sisteminin yaradılmasının vacibliyini hamı dərk edirdi. Ancaq sosialist təhsil sistemi əvəzinə hansı sistemi və necə yaratmaq məsələsində vahid mövqedə dura bilmirdilər. Bunun birinci səbəbi o idi ki, nə alim-mütəxəssislər, nə də siyasətçilər təhsil sisteminin ictimai-siyasi quruluşun funksiyası olmasını dərindən dərk etmirdilər. Süquta uğramış quruluşun təhsil sistemi də dəyişdirilməlidir. Sosialist təhsil sisteminin yerini bazar iqtisadiyyatı yolunu tutmuş milli təhsil sistemi tutmalıdır. İkinci səbəb isə milli təhsil sistemini yaratmağa cəhd edənlər sosializmdən kapitalizmə keçidin xüsusiyyətlərini və qaydalarını bilmirdilər.

Professor Z.Qaralov da 90-cı illərin əvvəlində yaxın keçmişə öz obyektiv və tarixi fikrini belə bildirir: "Son 70 ildə təhsil quruculuğu sahəsində əldə olunmuş nailiyyətləri "imperiya təhsil sistemi" damğası ilə bütövlükdə inkar etmək əvəzinə ağlabatan yeni layihələr vermədən, milli təhsil sistemi yaratmaq cəhdi fanatizmdən başqa bir şey deyildir" (5, 4).

Professorun fikirləri o dövrdə reallaşmasa da, son dövrlərdə aparılan islahatlar nəticəsində reallaşır. Müasir dövrün tələblərinə uyğun olaraq, ümumi təhsil sistemində "yaddaş" məktəbindən "təfəkkür" məktəbinə keçidin, təhsilin şəxsiyyətyönümlüyünün təmin edilməsi, ümumi təhsilin keyfiyyətinin yüksəldilməsi, mütərəqqi dünya təcrübəsinə əsaslanan milli kurikulumların hazırlanması və səmərəli tətbiqi ümumi təhsil sisteminin yeniləşdirilməsi qarşısında duran mühüm vəzifələrdəndir.

Azərbaycan Respublikasının müstəqilliyinin ilk illərində yeni təhsil quruculuğuna aid ideyaları təxminən üç qrupda əhatə etmək olar: I qrupun ideyası: Bəzi kosmetik düzəlişlər aparmaqla sosialist təhsil sistemini olduğu kimi saxlamaq. Bu fikrin müəllifləri bir mühüm qanunu: iki müxtəlif-eyni ölçmə sisteminə gətirilməsi mümkün olmayan ictimai-siyasi sistemin alt sistemlərini (təhsil sistemlərini) eyni müstəvidə yerləşdirməyin mümkünsüzlüyünü nəzərə almağı bacarmayanlar idi.

II qrupun ideyası: Sosialist üsul-idarəsi dağılıb cəmiyyətdən silindiyi kimi, ona məxsus təhsil sistemindən də imtina etməliyik. Bu fikri ümumiyyətlə təhsil sistemlərinin mahiyyətini bilməyənlər, təhsil quruculuğu proseslərində heç vaxt iştirak etməyən adamlar irəli sürürdülər.

III qrupun ideyası: Sosialist təhsil sisteminin 70 illik təcrübəsində özünü doğrultmuş, əhəmiyyətli nələr varsa onları seçmək, beynəlxalq təhsil sistemlərinin nailiyyətlərini öyrənmək, yeni ictimai-siyasi sistemin açdığı imkanları dərindən araşdırmaq, demokratik cəmiyyət quruculuğunun strateji məqsədlərini və Azərbaycanın təhsil quruculuğu təcrübəsini, eləcə də pedaqoji-psixoloji elmi-tədqiqatların nəticələrini nəzərə almaqla yeni milli təhsil sistemi qurmaq (4, 11). Bu ideyaları təhlil etdikdə görürük ki, Azərbaycanda təhsil sisteminin qurulması üçün, müxtəlif zamanlarda istər sosialist təhsil sistemi, istərsə də beynəxalq təhsil sisteminin əsasını əks etdirən fundamental tədqiqatlara və ədəbiyyata ehtiyacımız var.

Professor Zahid Qaralovun rəhbərliyi ilə 1987-ci ildən çox ciddi kompleks elmi-tədqiqat işləri aparmış alimlər qrupunun ideyası III qrupun ideyası idi. Ortaq çalışmalar əsasında birinci dəfə "Azərbaycan Respublikasının milli təhsil konsepsiyası" hazırlanaraq tətbiq edilmək üçün 1991-ci ildə respublikanın rəhbər orqanlarına təqdim olunmuşdu. Çox təəssüf ki, belə fundamental konsepsiyanın əhəmiyyətini görməyərək onu həyata keçirmədilər. 1992-ci ildə təhsil haqqında qəbul edilən qanun milli təhsil sistemi yaratmağa imkan vermədiyi kimi, eyni zamanda məktəbləri sosialist təhsil sisteminin yaratdığı mütərəqqi prinsiplərdən uzaqlaşdırdı. 11 illik ümumi orta təhsil səkkizilliyə endirildi, əmək təlimi məşğələləri və zəngin tədris emalatxanaları dağıdıldı, təbiət-riyaziyyat fənlərinin saatları azaldılaraq humanitar və praktik fənlərə verildi, yaradıcı müəllimlərə qarşı diqqət azaldığına görə təlimin keyfiyyəti aşağı düşdü, biliyin qiymətləndirilməsində formalizm geniş yer aldı, sosialist təhsil sisteminin əvəzinə heç bir təhsil sistemi yaranmadı və bu sahədə boşluqlar yarandı, tədris-tərbiyə kompleksi, o cümlədən əyani və texniki vəsait istehsalı üzrə heç bir tədbir görülmədi və s. Sosialist iqtisadiyyatı və avtoritar idarəetmə sistemi ilə bazar iqtisadiyyatı və açıq siyasi sistem arasındakı kəskin fərq təhsil sistemlərindəki fərqləri də üzə çıxardı. Bu problemlərin aradan qaldırılması və müvafiq milli təhsil sisteminin yaradılması üçün ulu öndər Heydər Əliyev təhsil islahatı barədə 2 fərman imzaladı, proqram təsdiq etdi. Bu sənədlər əsasında sistemdə müəyyən dəyişikliklər edildi. Professor Z.İ. Qaralov yazırdı: "Açıq bazar iqtisadiyyatı və açıq siyasi sistemə uyğun olan milli təhsil sisteminin

formalaşdırılması istiqamətində çox işlər görülməlidir. Əsaslı təhsil islahatı aparılmalıdır. Təhsil üzrə kompleks islahatın əsas məqsədi iqtisadiyyatın və cəmiyyətin dayanıqlı inkişafının təmin olunmasında fəal mövqe nümayiş etdirən, müstəqil və məhsuldar iş icra etməyi bacaran sağlam vətəndaş formalaşdırmaqdan ibarət olmalıdır" (4, 12).

Bu məqsədə çatmaq üçün təhsil sahəsində bir sıra məsələləri həll etmək lazımdır. İlk öncə "milli təhsil sistemi" anlayışı dəqiqləşdirilməlidir, əsas prinsipləri müəyyən olunmalıdır. Bunların əsasında milli təhsil sisteminin inkişaf strategiyası və bunun həyata keçirilməsi üçün mərhələli kompleks proqramlar işlənib hazırlanmalıdır. Xalqın təhsil islahatında hamılıqla iştirakını şərtləndirən faktor ölkəmizdə demokratik prinsipləri dönmədən həyata keçirmək istəyidir. Demokratiyanın aşağıdan inkişafı vətəndaş cəmiyyəti quruculuğunun mühüm şərtidir.

Təhsildə milli tərəqqi və inkişaf üçün 1999-cu ildə "Təhsil sahəsində İslahatlar Proqramı" hazırlanaraq təsdiq edildi. Proqramda Azərbaycan milli təhsil sisteminin strategiyası və konsepsiyası müəyyənləşdirildi. Burada təhsilin idarə edilməsində yeni prinsiplərin bərqərar olunması, təhsilin beynəlxalq standartlara uyğunlaşdırılması, dünya təhsil sisteminə inteqrasiyası və əsaslı şəkildə təkmilləşdirilməsi nəzərdə tutulurdu (2, 6). İslahatın əsasında duran təhsilin humanistləşdirilməsi, demokratikləşdirilməsi, diferensiallaşdırılması və inteqrasiyası kimi prinsiplər milli zəmində, bəşəri dəyərlər əsasında dünyəvi təhsil sisteminin yaradılması, gələcək nəslin şəxsiyyət kimi formalaşması üçün onun təlim-tərbiyə prosesinin bərabərhüquqlu subyektinə çevrilməsini əsas vəzifə kimi qarşıya qoyur.

Beləliklə, bugün ki, təhsil sistemində aparılan dəyişiliklər və islahatları təhlil etdikdə onun əsası ilə professor Zahid Qaralovun yeni təhsil sisteminin yaradılmasında irəli sürdüyü təkliflərin bir çox oxşar cəhətlərini görə bilərik. Bu da professorun fikirlərinin bugün də öz aktuallığını qoruyub saxladığını göstərir.

**Məqalənin aktuallığı.** Təhsil sistemindəki problemlərin araşdırılması və həlli yollarının göstərilməsidir.

**Məqalənin elmi yeniliyi.** Professor Z.Qaralovun təhsil sistemindəki problemləri araşdıraraq üzə çıxarması və həlli üçün irəli sürdüyü təkliflərin əks etdirilməsidir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalə gənc tədqiqatçılar, magistrantlər, təhsil işçiləri və pedaqoji sahədə çalışanlar üçün faydalı olacaqdır.

## Ədəbiyyat

1. Ağamalıyev R. Azərbaycan təhsili XXI əsrə doğru: idarəetmə, prioritetlər, islahatlar. Bakı: Təhsil, 1998.

2. Baxşəliyev F.R. Heydər Əliyev və Azərbaycanın təhsil sistemində aparılan islahatın əsas istiqamətləri: Fəlsəfə elm. nam. ... dis. Bakı, 2009.

3. Qaralov Z. Tərbiyə. I cild. Bakı: Pedaqogika, 2003.

4. Qaralov Z. Təhsil sistemlərinə müasir baxış. Bakı: Pedaqogika, 2003.

5. Qaralov Z. Azərbaycan Respublikasında təhsil islahatının əsas istiqamətləri haqqında // Azərbaycan məktəbi, 1993, № 1-3

**С. Мамедова**

## Профессор Захид Каралов о проблемах и решениях в нашей системе образования

### Резюме

В статье упоминаются взгляды профессора Захида Гаралова о системе социалистического воспитания и ее преимуществах, недостатках закона об образовании, принятого в 1992 году. В статье также отражено создание национальной системы образования, ее принципов и ее формирования. Также было истолковано основное содержание реформ в образовании.

**S. Mammadova**

## Professor Zahid Garalov About problems and solutions in our education system

### Summary

The article mentions the views of Professor Zahid Garalov on the system of socialist education and its advantages, the shortcomings of the law on education, adopted in 1992. The article also reflects the creation of a national education system, its principles and its formation. The main content of educational reforms was also interpreted.

**Redaksiyaya daxil olub:** 06.12.2018